# MƏNALI VƏ ŞƏRƏFLİ ÖMÜR SAHİBİ

*Çalış öz xalqının işinə yara*
*Geysin əməlindən dünya zər-xara.*

**Nizami Gəncəvi**

Bir ömür kitabı vərəqləyirəm. Səhifələri bir-birindən çox maraqlı, yaddaqalan hadisələrlə çox doludur. Onun birinci səhifəsində yazılıb: Musayev Oruc İbrahimoğlu 1929-cu ildə Şəmkir rayonunun Dəlləkli kəndində zəhmətkeş bir ailədə doğulub. Bu kitabı çox maraqla, həm də həyəcanla vərəqlədikcə bir insanın, bir müəllimin, bir alimin keçdiyi mənalı, şərəfli ömür yolu gözlərim önündə canlanır. Bir-birindən çox maraqlı, unudulmaz hadisələr diqqətimi çox cəlb edir. İllər keçdikcə, öz zəhmətsevərliyi, qazandığı uğurları ilə hamının istəklisinə çevrilən bir insan ömrü vərəqlənir səhifə-səhifə, vərəq-vərəq bu kitabda. Uşaqlıq illərindən ta indiyə kimi. Bu mənalı, şərəfli ömür sahibi Oruc müəllimdir. Mənim əziz müəllimim. Bizim hamımızın sevimli müəllimi. Müəllimlər müəllimi. Müdrik, olduqca qayğıkeş bir insan, ünlü ağsaqqal, tanınmış şəxsiyyət, parlaq ziyalı. Yorulmaz ingilis dili tədqiqatçısı, parlaq zəka sahibi. Uca zirvə kimi həmişə vüqarlı, çox şux duran, qədli-qamətli, olduqca əzamətli görünən nəvazişkar bir şəxsiyyət. Çox müdrik, olduqca qayğıkeş, səxavətli, mehriban, təmkinli, səbirli, sədaqətli bir insan. Çox söhbətcil, həm də çalışqan, gecəni gündüzə qatan, heç vaxt yorulmayan bir dil tədqiqatçısı. Özünün ingilis dili sahəsində qazandığı böyük uğurları, yenilikləri ilə hal-hazırda dünyanın ən məşhur dilçiləri ilə çiyin-çiyinə duran, onlarla bərabər addımlayan, öz analitik təfəkkürü, ciddi araşdırılmaları sayəsində sayılıb-seçilən elm fədaisi, novator alim... İngilis dili bilicisi. Öz elmi mülahizələri ilə başqalarından çox seçilən bir novator alim... İngilis dili karifeyi...

Öz parlaq zəkası, dərin düşüncəsi ilə ingilis dilinin qrammatikasında onun qaranlıq qatlarına çox işıq salan, bu sahədə çox çətinliklərə, əzab-əziyyətlərə sinə gərib, onu araşdıran, çox dəyərli, sanballı elmi, elmi-metodik kitablar, müxtəlif maraqlı dərsliklər, bir çox dəyərli, fundamental lüğətlər yazan görkəmli alim, mənalı ömür sahibi. Öz əməksevərliyi, çalışqanlığı ilə başqalarından çox seçilən, fərqlənən bir dil tədqiqatçısı, elm fədaisi. Həmişə elmi axtarışlar etməkdən zövq alan, heç vaxt doymayan, yorulmayan, yazıb-yaratmağı özünə bir mənəvi borc bilən, başqalarına yeri gəldikcə dəyərli-faydalı elmi məsləhətlər verən bir elmlər doktoru, elm xadimi, əsl vətənpərvər. Öz halal zəhməti, dəmir iradəsi ilə yorulmadan çalışıb azərbaycanlı balaları üçün ingilis dilində bir əzəmətli "qala" quran əməksevər bir alim ömrü yaşayan Oruc müəllim. İndi hamı bilir ki, ingilis dilində yaradılan çox uca bir zirvə var. İngilis dilinin




Oruc müəllim zirvəsi. Bu zirvənin başı indi göylərə ucalır, buludlara söykənir. Hər səhər şərqdən doğan günəşin zərrin şəfəqləri ilk dəfə ancaq bu zirvəni al şəfəqə bürüyür. Nə qədər uzaqdan baxsan da ancaq ilk dəfə bu zirvə çox parlaq görünür. Çox da əzəmətli, möhtəşəmdir. O, çox əvəzsizdir, əlçatmazdır, ünyetməzdir. Bu zirvənin memarı, yaradıcısı ancaq Oruc müəllimdir. Hamımızın sevimlisi Oruc İbrahim oğlu Musayevdir. Dünyanın böyük dahisi Məhəmməd peyğəmbər (S) belələri haqqında demişdi: "Hər kəsin qiyməti onun elmi, biliyi qədərdir"...

Bax beləcə çox mənalı, çox şərəfli, dəyərli ömür yaşayan bir müəllim tanıyıram. İşlədiyi yer Azərbaycan Dillər Universiteti olub. Uzun illər orada müəllim işləyib. Müxtəlif vəzifələrdə çalışıb. Sonra da AMEA-nın Nəsimi adına Dilçilik İnstitundakı Hind-Avropa dilləri şöbəsinin müdiri olub. Yenə də yorulmadan çalışıb, həmişə dəyərli məsləhətlər verib. Ehtiyacı olanlara kömək əli uzadıb. İndiyə kimi, mənalı ömrünü əridərək gilə-gilə minlərlə, milyonlarla tələbələrin ömrünə qatıb o. Hətta neçə-neçə gənc alimlərin yetişməsində zəhməti çox olub onun. Uzun illər parlaq zəkasından, elə-obaya, geniş kütləyə nur paylanıb. El-oba, xalq kütləsi bu işıqdan indidə çox nurlanır, çox barlanır. İllər bir-birinə calandıqca bu işıq daha da artır, getdikcə lap güclənir, lap parlayır, heç tükənmir. Mənalı ömrünün çox hissəsini ali məktəb auditoriyalarında şam kimi əridib onu damla-damla, gilə-gilə saysız-hesabsız ömürlərinə qatan Oruc müəllim. İllər ötdükcə minlərlə-milyonlarla ömürlərdə bu damlalar sonralar yavaş-yavaş işıq saçıb, çox parlayıb. Sahiblərini öz arzularına, amallarına çatdırıb. Bəli, sevimli müəllimimin ömrü uzun illərdir əriyib ömürlərə qarışıb. O, heç vaxt xəsislik etməyib, buna təəssüflənməyib də... O, indi həmişəyaşar olub. Oruc müəllim həmişə ağır zəhmətdən çox şərəf duyub. Özü də onunla çox erkən ülfət bağlayıb, onu sevib. Ancaq özü demişkən "Gələcək uğurlar ancaq qaynar zəhmətdən keçir". Kim qaynar zəhmətdən keçirsə, onu sevirsə, o, uğurlar, qələbələr qazanır, başı uca, yenilməz olur həyatda. Ömrü də mənalanır, hamı tərəfindən çox sevilir, alqışlanır. Dərin hörmət-izzət sahibi olur.

Sevimli xalq şairimiz Bəxtiyar Vahabzadə belə şərəfli ömür sahibləri haqqında yaxşı deyib:

Ömür bizə verilmir
yalnız yaşamaq üçün.
Ömür bizə verilir
dünyanın da dərdini
çəkmək, danışmaq üçün.
Ömür qəlbin, zəkanın
min eşqi, min əməli.
Ömür ömürdən sonra
Yaşamağın təməli.

Bəli, həyatında həmişə doğru yol yolçusu, dönməz əqidə sahibi, doğruluq, haqq tərəfdarı olan, Vətən, xalq üçün ürəyi məşəl kimi daim alışıb-yanan sevimli müəllimim, professor, filologiya elmləri doktoru Oruc Musayev bax belə bir şəxsiyyətdir. Onun keçib gəldiyi həyat yolu çox maraqlı və rəngarəngdir. Hamı üçün bir örnəkdir. Ondakı dəmir iradə, əməksevərlik, vətənpərvərlik, türksevərlik, mətinlik, cəsarrət və hünər onu öz istəyinə, amalına çatdırıb. O, bundan çox şərəf duyur... Özünü çox xoşbəxt sanır...

Sevimli müəllimim bu il, 2019-cu ildə mənalı ömrünün 90-cı baharına qədəm qoyub. Ömrün bu baharında da ona, hamının sevimlisi olan bir insana, tanınmış, parlaq ziyalıya, məşhur, novator alimə, çox hörmətli Oruc müəllimə cansağlığı, uzun ömür, yenə tükənməz yazıb-yaratmaq eşqi, həvəsi arzulayıram.

***Bəhram ZEYNALOV,***
***Oruc müəllimin keçmiş tələbəsi,***
***Ali kateqoriyalı ingilis dili müəllimi,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***